AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 101

Bakı şəhəri 23 fevral 2018-ci il

“Azərbaycanda muğam elmi: reallıq və perspektivlər” mövzusunda simpoziumun keçirilməsi haqqında

07-10 mart 2018-ci il tarixlərində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı və ölkəmizdə təşkil olunan “Muğam Aləmi” V Muğam Festivalı çərçivəsində Bakı və Gəncə şəhərlərində “Azərbaycanda muğam elmi: reallıq və perspektivlər” mövzusunda simpozium keçiriləcəkdir. Tədbirdə yerli iştirakçılarla yanaşı, Türkiyə, Fransa, Macarıstan, Kanada, Hollandiya, Qazaxıstan, Özbəkistan, Serbiya və İrandan 15-ə yaxın xarici qonağın iştirakı gözlənilir. Sözügedən simpoziumun Bakıda keçiriləcək hissəsinin təşkilati işlərinin təmin edilməsi məqsədilə:

1. AMEA İşlər idarəsinin müdiri, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayevə və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi, texnika üzrə fəlsəfə doktoru İlqar Quliyevə tapşırılsın ki, tədbirin keçirilməsi üçün zəruri təşkilati-maliyyə dəstəyin göstərilməsi təmin edilsin.
2. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin rəisi Zülfüqar Fərzəliyevə tapşırılsın ki, simpoziumun kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilsin.
3. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

Əsas: Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 30.01.2018-ci il tarixli 24 nömrəli əmri

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT